## Valyuta risklərinin tənzimlənmə alətləri

Bankın hazırkı açıq valyuta mövqeyi Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının 01.03.2019 tarixli qaydaları və normativ limitlər çərçivəsində tənzimlənir.

Banklar valyuta riskini idarə etmək üçün müxtəlif hedcləşdirmə əməliyyatlarından istifadə edirlər: SPOT valyuta əməliyyatları, SWAP, Derivativlər (Forvard kontraktları və Opsionlar) və sair.

**Hedcləşdirmə** – törəmə maliyyə alətləri, habelə forvard müqavilələri vasitəsilə mübadilə məzənnəsinin dəyişməsindən yarana biləcək itkinin qarşısının alınması.

**Törəmə maliyyə aləti** hər hansı baza aktivini almaq, satmaq və ya dəyişdirmək hüququnu təsbit edən müqavilədir. Baza aktivi qismində qiymətli kağız, valyuta, faiz dərəcəsi, gəlirlik, törəmə maliyyə aləti, əmtəə, maliyyə indeksi, kredit riski və s. çıxış edə bilər. Törəmə maliyyə alətlərinə **fyuçers, opsion və svopu** aid etmək olar.

**Fyuçers** baza aktivinin müəyyənləşdirilmiş növdə və sayda əvvəlcədən razılaşdırılmış tarixə və qiymətə alqı-satqısı üzrə törəmə maliyyə alətidir.

**Opsion** sahibinə birtərəfli qaydada baza aktivini almaq, satmaq və ya svop etmək hüququnu verən törəmə maliyyə alətidir.

**Svop** iki tərəf arasında eyni növ baza aktivlərinin dəyişdirilməsi üzrə törəmə maliyyə alətidir.